Qiyməti :1 manat



## FƏRQİ TAP!



**Abunə olmaq üçün!**

**Jurnalımızı əldə etmək üçün bu mətbuat yayımı firmalarına zəng vurun:**
**"Qaya" (012) 564 48 96; (012) 564 63 45; "Səma" (012) 596 22 97;**
**"Metro Servis" (012) 434 01 33; "XPress-Elita" (012) 437 28 10;**

# GÖYƏRÇİN

İSSN-0207-4710

2
2018



# AĞASƏFA YƏHYAYEV - 75



*Əziz balalar, tanınmış şair, indi Xızının Qarabulaq kəndində yaşayan Ağəsafa gözəl-gözəl şeirlərin müəllifidir. Ömrünün 75-ci baharını yaşayan Ağasəfa baba indi də yorulmaq bilmədən yazıb yaradır. Jurnalımızın yaradıcı kollektivi adından şairimizi təbrik edir, ona san sağlığı, yaradıcılıq uğurları arzulayırıq.*

## ƏN ŞİRİN SÖZ

-Ən şirin söz hansıdır?.
Birdən soruşdu Gülgəz.
-Ən şirin söz hansıdır?-
Yalçından çıxmadı səs.

Yalçın qəlbində hələ
"Bu nə sözdür?" deyirdi.
Qımışıb gülə-gülə
Gözlərini döyürdü.

Çıxdı qabağa Əvəz:
-Qoy mən deyim, yana dur!
Dünyada ən əziz söz,
Ən şirin söz anadır.

## QAPIDAN QOVDU MƏNİ

Dünən dostum Rövşənin
Küçüyünə daş atdım.
Yaman qorxdu, yüyürüb
Qaçdı məndən beş addım.
Bü gün getdim çağırım
Oynamağa Rövşəni,
Küçük çıxdı bayıra,
Qapıdan qovdu məni.

## GƏLİN ÖYRƏNƏK

Hər axşamçağı
Bacım Firuzə
Rəqs eləməyi
Öyrədir bizə.
Gəlin öyrənək
Biz oynamağı,
Bayram şənliyi
Olacaq axı?!





# MAHNI TÖHFƏSİ



*Biri var idi, biri yox idi. Bir Rəşid baba var idi. O, uşaqlar üçün gözəl-gözəl mahnılar bəstələyərdi.*

*Təəssüf ki, gözəl bəstəkarımız Rəşid Şəfəq indi aramızda yoxdur. Təskinliyimiz isə budur ki, onun bəstələdiyi çoxlu sayda mahnılar bizə yadigar qalıb.*

*İndi o mahnılardan birinin notunu və mətnini sizə təqdim edirik. Ümidvarıq ki, uşaqlar Rəşid Şəfəqin mahnılarını oxuyanda onun ruhu şad olacaq...*

***Mus: Rəşid Şəfəq***
***Söz: Rafiq Yusifoğlu***




## AZƏRBAYCAN ƏSGƏRİ

Azərbaycan əsgəri,
Canını əsirgəməz.
Vətən üçün son gilə
Qanını əsirgəməz.

Qəhrəmanlıq göstərib,
Düşməni mat qoyar o.
Vətənə xor baxanın
Gözlərini oyar o.

Ona ruh verən eli
Qorumaq həvəsidir.
Babəkin, Koroğlunun,
Həzinin nəvəsidir!

